**Imanli M.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.50-56**
**UDC: 343.97**

# Armenian vandalism in the occupied territories of Azerbaijan: Armenia has directly violated international conventions regulating the Hague Convention and the laws of war

**Abstract:** Legal bases of inadmissibility and compensation for damage to the environment and natural resources According to the 1907 Hague Convention on the Laws and Regulations of War, if the warring party occupies the territory of the other party, then the looting of the property belonging to the civilian population is not allowed and this act is considered a war crime. The behavior of Armenians in the occupied territories of Azerbaijan completely contradicts the provisions of this convention. Evidence obtained from various sources about what is happening in these territories-photos and videos, eyewitness accounts, observations of foreign journalists and other information-shows that Armenia has directly violated the Hague Convention and other international conventions governing the laws of war. No doubt, the massive construction work ongoing today in the occupied territories shows that both Armenian separatists in Karabakh and Armenia have become the main sources of income as a state. Environmental problems are currently being discussed as a global issue in the world and the alarm is sounding. However, international organizations not only did serious work to prevent the damage caused by Armenians to the nature of Azerbaijan, but turned a blind eye to it.

**Keywords:** environment; international environmental law; UN Framework Convention on Climate Change; natural resources; environmental safety; UN International Commission; armenian vandalism; Hague Convention; international law.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, 2015 (in Azerbaijani).
2. Criminal Code of the Republic of Azerbaijan. Baku, 2016 (in Azerbaijani).
3. Imanli M.N. Criminal law. Special part. Textbook, Baku, 2019, 418 p. (in Azerbaijani).
4. Law of the Republic of Azerbaijan “On environmental safety”. Available at: https://e-qanun.az/framework/3851 (in Azerbaijani).
5. Decree of the President of the Republic of Azerbaijan on additional measures in the field of issues arising from the international conventions and agreements to which the Republic of Azerbaijan has joined on environmental protection. Available at: http://eco.gov.az/az/426-additional-measures-in-the-field-of-issues-from-etraf-muhitin-mehafizesi-ile-agli-azerbaycan-republikaninin-souldugu-international-conventions-and-agreements-about-the-responsibility-of-the-president-of-Azerbaijan (in Azerbaijani).
6. Mirzali Fataliyev about natural resources. Available at: http://az.strategiya.az/?do=xeber&id=37440 (in Azerbaijani).

♦ **Imanli Muhammad Naghi oglu** - Doctor of Law, Professor, Head of the “Legal Support of State Security” Deparment of the public legal entity of the Institute of Law and Human Rights under the public legal entity Center for Legal Expertise and Legislative Initiatives (Azerbaijan). E-mail: mahammad_imanli@mail.ru

7. Mammadov G. Ch., Khalilov M.Y. Ecology, environment and man. Baku, Elm Publ., 2006, 608 p. Ecology and environmental protection is a global problem of the time. (in Azerbaijani)

8. What are the 7 types of weapons banned in the world? Available at: https:/www.bildirchin.az/dunyada-gadagan-olunmus-7-silah-novu-hansidir/ (in Azerbaijani).

9. Dashgin Ganbarov. International legal regulation in the field of environmental protection. Revival-XXI century, 2010, No. 143-144, p. 228-234. (in Azerbaijani)

**İmanlı M.N.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.50-56**
**UOT: 343.97**

## Azərbaycanın işğal edilmiş ərazilərində erməni vandalizmi: Ermənistan Haaqa Konvensiyasını və müharibə qanunlarını tənzimləyən beynəlxalq konvensiyaları birbaşa pozmuşdur

**Xülasə:** Ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin yolverilməzliyi və ödənilməsinin hüquqi əsasları Müharibə qanun və qaydaları barədə 1907-ci il Haaqa Konvensiyasına görə, müharibə aparan tərəf qarşı tərəfin ərazisini işğal edərsə, bu zaman mülki əhaliyə aid olan əmlakın talan edilməsinə yol verilmir və bu əməl hərbi cinayət hesab edilir. Azərbaycanın işğal edilmiş ərazilərində ermənilərin davranışı bu Konvensiyanın müddəalarına tamamilə ziddir. Bu ərazilərdə baş verənlər barədə müxtəlif mənbələr vasitəsilə əldə edilən dəlillər-foto və videogörüntülər, şahid ifadələri, xarici jurnalistlərin müşahidələri və digər məlumatlar göstərir ki, Ermənistan Haaqa konvensiyası və müharibə qanunlarını tənzimləyən digər beynəlxalq konvensiyaları birbaşa pozmuşdur. Heç şübhəsiz ki, işğal edilmiş ərazilərdə bu gün də davam edən kütləvi quruculuq işləri, həm Qarabağdakı erməni separatçılarının, həm də Ermənistan dövlət kimi əsas gəlir qaynaqlarına çevrildiyini göstərir. Ekoloji problemlər hazırda dünyada qlobal məsələ kimi müzakirə olunur və həyəcan təbili çalınır. Ancaq beynəlxalq təşkilatlar ermənilərin Azərbaycan təbiətinə vurduğu ziyanın qarşısını almaq üçün nəinki ciddi işlər görmüş, əksinə buna göz yummuşlar.

**Açar sözlər:** ətraf mühit; beynəlxalq ekologiya hüququ; BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası; təbii ehtiyatlar; ekoloji təhlükəsizlik; BMT Beynəlxaq Komissiyası; erməni vandalizmi; Haaqa Konvensiyası; beynəlxalq hüquq.

2006-cı il sentyabrın 6-da BMT Baş Məclisinin 60-cı sessiyasında Azərbaycanın ərazilərindəki vəziyyət müzakirəyə çıxarılıb. Həmin sessiyada işğal olunmuş ərazilərdə ermənilərin Azərbaycanın təbiətinə vurduğu ziyan və yanğınlar törədilməsi ilə bağlı ciddi narahatlıqlar diqqətə

♦ **İmanlı Məhəmməd Nağı oğlu** - hüquq elmləri doktoru, professor, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi publik hüquqi şəxsin tabeliyində olan Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin "Dövlət Təhlükəsizliyinin Hüquqi Təminatı" şöbəsinin müdiri (Azərbaycan). E-mail: mahammad_imanli@mail.ru

çatdırılıb. Daha sonra əraziyə ATƏT-in qiymətləndirmə missiyası göndərilib. Yaradılmış xüsusi komissiya yanğınların törədildiyi ərazilərdə olub və hesabat hazırlanaraq BMT-yə təqdim edilib. Azərbaycan tərəfi işğal olunmuş ərazilərdə fəaliyyət göstərən xarici şirkətlərlə bağlı həmin şirkətin təmsil olunduğu ölkələrin dövlət başçılarına etiraz məktubları göndərməsinə baxmayaraq Azərbaycan ərazilərində ekoloji terror davam etmişdir.

Ümumiyyətlə, Azərbaycan tərəfindən Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının baş katibi, Biomüxtəliflik üzrə Konvensiyanın icraçı katibi BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyi, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin Prezidenti ermənilərin bəşəriyyətə qarşı yönəlmiş cinayət əməlləri ilə bağlı rəsmi şəkildə məlumatlandırılmış, işğalın aradan qaldırılması və təbiətə qarşı törədilən cinayət əməllərinin qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin zəruriliyi beynəlxalq təşkilatların diqqətinə çatdırılmışdır. Sülh, inkişaf və ətraf mühitin mühafizəsi bir-birindən asılı və ayrılmazdır. Amma bu gün işğalçı Ermənistan dövləti bütün bu prinsipləri dünya dövlətlərinin gözü önündə kobud şəkildə pozduğunu və törədilmiş cinayətlərə görə cəzasız qaldığını nümayiş etdirir [5].

Beynəlxalq ekologiya hüququ - ətraf mühitin çirklənmədən qorunması və təbii ehtiyatların rasional istifadəsi ilə bağlı dövlətlərarası münasibətləri nizama salan normaların məcmusudur. Təbiətin qorunması və onun ehtiyatlarından səmərəli istifadə olunması müasir qlobal problemlərdən biridir. Bu problemin həllində bütün dövlətlər maraqlı olmalıdır. Bu ideya mühüm beynəlxalq sənədlər olan Ətraf mühitin problemlərinə dair 1972-ci il Slokholm Bəyannaməsində və ətraf mühit və inkişafa dair 1992-ci il Rio-de-Janeyro Bəyannaməsində, habelə bir sıra beynəlxalq müqavilələrdə birbaşa təsbit olunmuşdur. Təbiətin və təbii ehtiyatların qorunub saxlanması haqqında 1968-ci il Afrika Konvensiyasının preambulasında vurğulanır ki, torpaq, su, flora və fauna bəşəriyyət üçün həyatı əhəmiyyətə malikdir. Bioloji müxtəliflik haqqında 1992-ci il Konvensiyasının preambulasında göstərilir ki, bioloji müxtəlifliyin qorunub saxlanması bütün bəşəriyyətin ümumi vəzifəsidir. Müasir dövrdə ayrılıqda bir dövlət üçün ekoloji təhlükəsizlik sistemi yaradılması qeyri-mümkündür. Yalnız birgə səylər sayəsində müvafiq hüquqi rejim yaratmaqla, bu günkü və gələcək nəsillərin sağlam yaşayışını və inkişafını təmin etmək olar. Odur ki, ətraf mühitin qorunmasında və ekoloji ehtiyatların mühafizəsində beynəlxalq ekologiya hüququ həlledici rol oynamalıdır [4].

Beynəlxalq ekologiya hüququnun predmetinə aşağıdakı məsələlər daxildir: 1) ətraf mühitə müxtəlif mənbələrdən dəyən zərərin qarşısının alınması, azaldılması və aradan qaldırılması; 2) təbii ehtiyatların ekoloji baxımdan əsaslandırılmış rasional istifadəsi rejiminin təmin edilməsi; 3) ətraf mühitin mühafizəsi ilə bağlı dövlətin elmi-texniki əməkdaşlığı. Beynəlxalq ekologiya hüququnun mənbələrindən danışsaq görərik ki, beynəlxalq ekoloji standartların ən yaxşı və səmərəli ifadə forması beynəlxalq müqavilələrdir. Hazırda ətraf mühitin mühafizəsinin müxtəlif aspektlərinə dair 500-ə qədər beynəlxalq saziş mövcuddur. Onların içərisində ikitərəfli regional və universal sazişlər, ətraf mühitin qorunmasının ümumi məsələlərinə və ya ayrı-ayrı ekoloji sistemlərin - dəniz mühitinin, atmosferin, yerətrafı kosmik fəzanın - mühafizəsinə həsr olunmuş müqavilələr vardır. Lakin bu sahədə bu günə qədər vahid məcəllə ilə xarakterizə olunan akt işlənib hazırlanmamışdır. Beynəlxalq ekologiya hüququnda tövsiyə xarakterli aktlar əhəmiyyətli rol oynayır. Müxtəlif xarakterli ekoloji tələblər ilk əvvəl tövsiyə kimi qətnamələrdə, bəyannamələrdə, proqramlarda və s. əks olunur (belə normalara beynəlxalq hüquq elmində "yumşaq hüquq" da deyirlər), müəyyən müddət keçdikdən sonra isə bu standartların bəziləri ya müqavilə qaydasında, ya da beynəlxalq adət

şəklində məcburi hüquq normaları kimi tanınır. Tövsiyə xarakterli aktlara misal olaraq, Stokholm və Rio-de-Janeyro Bəyannamələrini, 1982-ci Ümumdünya təbiəti mühafizə Xartiyasını göstərmək olar. Məsələn, Rio-de-Janeyro Bəyannaməsində dövlətlərin aşağıdakı vəzifələri müəyyən edilmişdir: - ətraf mühitin mühafizəsi sahəsində hər bir dövlət tərəfindən effektiv qanunların qəbul edilməsi; - ətraf mühitin çirkləndirilməsinə görə dövlətlərin məsuliyyəti; - ətraf mühitə və insana zərər vuran çirkləndiricilərin digər dövlətlərdə yerləşdirilməsinə yol verilməməsi; - ətraf mühit üçün neqativ nəticələr verə biləcək tədbirlər haqqında dövlətlərin bir-birinə məlumat verməsi; - Yerin ekosistemlərini qorumaq məqsədilə dövlətlərin qlobal əməkdaşlığı; - planlaşdırılan fəaliyyətin ekoloji nəticələrinin qabaqcadan qiymətləndirilməsi; - ətraf mühitin vəziyyətinin pisləşməsi hallarının qarşısının alınması üzrə bütün zəruri tədbirlərin görülməsi; - hərbi münaqişələr dövründə ətraf mühitin mühafizəsinin təmin edilməsi və s.

İlk dəfə 1987-ci ildə BMT Beynəlxaq Komissiyasının məruzəsində təklif edilmiş və 1992-ci ildə ətraf mühit və inkşaf üzrə BMT-nin Rio-deJaneyroda keçirilmiş konfransında planetin bütün ölkələri üçün XXI əsrdə fəaliyyət planı kimi təsdiq olunmuş “Davamlı inkişaf” konsepsiyası “Cəmiyyət-təbiət” qlobal sistemində davamlı inkişaf və müxtəlif səviyyəli sosiockosis-temlərdə dinamik müvazinətin gözlənilməsini tələb edir [6].

1992-ci il Ətraf mühitə və inkişafa dair Rio-de-Janeyro bəyannaməsində göstərilir ki, “Bugünki inkşaf indiki və gələcək nəsillərin ziyanına həyata keçirilməməli, dövlətlər Yer ekosistemlərinin qorunması, mühafizəsi və bütövlüyünü bərpa etmək məqsədilə əmakdaşlıq etməlidir”. Bəyannamədə qeyd olunur ki, inkişaf etmiş ölkələr, davamlı inkişafı təmin etməkdə beynəlxalq cəhdlər üçün öz məsuliyyətini dərk etməli, ətraf mühiti çirkləndirən bu çirklənməyə görə maliyyə məsuliyyəti daşımalı, müharibə davamlı inkişaf prosesinə dağıdıcı təsir göstərdiyinə görə dövlətlər silahlı konfliktlər zamanı ətraf mühiti mühafizə edən beynəlxalq hüquqa hörmət etməlidirlər. Ətraf mühitin müharibə dövründə qorunması ilə əlaqədar özündə müharibə dövründə təbii mühitin qorunması ilə bağlı normalar ehtiva edən bir sıra beynəlxalq-hüquqi aktlar mövcuddur. Quru müharibəsinin qanun və adətləri haqqında 1907-ci il Haaqa Konvensiyası, Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyası və bu Konvensiyaya I Əlavə Protokol, Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il Konvensiyası, Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında 1980-cı il Konvensiyası buna misaldır. 1949-cu il Cenevrə Konvensiyasına I Əlavə Protokolun 35-ci maddəsi ətraf mühitin mühafizəsi prinsipini təsbit edir və təbii mühitə geniş miqyaslı, uzun müddətli və ciddi zərər yetirmək məqsədi güdən hərbi əməliyyatların aparılmasının metod və vasitələrini qadağan edir. Ətraf mühitin hucum obyektinə çevrilməsi qadağan olunmuşdur. Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il Konvensiyası iştirakçı dövlətlərin üzərinə aşağıdakı əsas öhdəlikləri qoyur: - a) Yerin dinamika və sturukturunu, onun canlı aləmini, litosferi, hidrosferi, atmosferi və ya kosmosu qəsdən dəyişikliyə uğradan vasitələrin hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadəsinə yol verməmək; - b) təbii mühiti dəyişikliyə uğradan vasitələrin hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə edilməsində digər dövlətlərə və ya qurumlara yardım etməmək; - c) təbii mühiti dəyişikliyə uğradan vasitələrdən yalnız dinc məqsədlər üçün istifadə etmək; - ç) bu Konvensiyaya zidd olan hər hansı fəaliyyətin qadağan olunması və qarşısının alınması istiqamətində istənilən qanuni tədbirləri görmək və s. [3].

"Adi silah növləri haqqında" 1980-cı il Konvensiyasına əlavə olunmuş Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokolda (III Protokol) meşələrin və bitki örtüyünün digər növlərinin yandırıcı silahların tətbiqi ilə hücum obyektinə çevrilməsi qadağan olunmuşdur [9].

Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi, əsasən BMT səviyyəsində həm BMT orqanları, həm də BMT-nin ixtisaslaşdırılmış təsisatları çərçivəsində həyata keçirilir. Baş Assambleya yanında Atom radiasiyasının təsiri üzrə Elmi Komitə, Kosmik fəzanın dinc məqsədlərlə istifadəsi üzrə Komitə kimi köməkçi orqanlar fəaliyyət göstərir. Dövlətin beynəlxalq hüquqi məsuliyyətinin iki növü məlumdur: - siyasi və maddi. Siyasi məsuliyyətin ən geniş yayılmış forması sanksiyalardır və ağır beynəlxalq cinayət törədildiyi halda hüquq pozuntusuna yol vermiş dövlət barəsində tətbiq olunan məcburetmə tədbirlərindən ibarətdir. Maddi məsuliyyət isə hər hansı bir dövlət tərəfindən beynəlxalq öhdəliklərin pozulması zamanı onun fəaliyyəti nəticəsində dünya cəmiyyətinə və ya onun ayrı-ayrı üzvlərinə maddi zərər vurulduqda meydana çıxır və aşağıdakı formaları mövcuddur: - reparasiya (ekoloji zərərin əvəzinin pulla ödənilməsi); - restitusiya (qanunsuz götürülmüş əmlakın naturada qaytarılması); - substitusiya (qanunsuz olaraq məhv edilmiş və ya yararsız hala düşmüş obyektlərin əvəzlənməsi). Ekoloji qanun pozuntularına görə, qanunu pozan dövlətə qarşı digər məsuliyyət növləri ilə bərabər, "Restovrasiya" da tətbiq olunur ki, bu da hər hansı bir obyektin bərpası ilə əvvəlki vəziyyətə gətirilməsidir (onun təqsirindən çirklənmiş suyun təmizliyinin bərpa edilməsi və s.) [2].

Müasir dövrlərdə praktiki olaraq dünyanın bütün inkişaf etmiş ölkələrində ekoloji təhlükəsizlik sahəsində milli proqramlar hazırlanıb, qəbul olunub, həyata keçirilməkdədir. İlk vaxtlar bu proqramın reallaşdırılması yığılıb qalmış tullantıların məhv edilməsinə yönəldilmişdi. Əvvəllər bu sahədə görülən tədbirlər istehsalat fəaliyyətinin neqativ nəticələrini aradan qaldırmağa yönəldiyindən demək olar ki, ətraf mühitin korlanması nəzərə alınmırdı [7].

Belə yanaşmanın qeyri-obyektiv olması aydın olsa da ilk vaxtlar ona bəraət qazandırılırdı. Belə ki, keçmiş fəaliyyətdə pozulmuş ekosistemi xilas etmək lazım gəlirdi, indi isə digər problemlər daha çox nəzərə çarpır. Beləliklə, qeyd etməliyik ki, beynəlxalq ekoloji tənzimləmənin milli ekoloji tənzimləmə ilə qarşılıqlı əlaqəsi kifayət qədər mürəkkəb sistemdir və bu mürəkkəblik də milli ekoloji tənzimləmənin müvafiq dövlətin vahid iradəsini ifadə etdiyi halda, beynəlxalq ekoloji tənzimləmənin bir neçə dövlətin və ya beynəlxalq təşkilatların iradəsini" ifadə etməsindən ibarətdir [8].

Bəşəriyyət dərk etməlidir ki, onun planetimizlə qarşılıqlı əlaqəsinin xarakteri dəyişməkdədir və baş verən ətraf təbii mühitin dağıdılması isə qlobal nəticələrə gətirib çıxara bilər. Belə vəziyyətdə yeganə çıxış yolu ətraf təbii mühitə təsir yox, onunla qarşılıqlı əlaqədir. Bu qarşılıqlı əlaqə təmin olunmazsa bəşəriyyət insanın ətraf təbii mühitlə münasibətini dəyişən dramatik hadisələrin şahidi olacaqdır. Ətraf mühitə vurulmuş zərərə görə Ermənistan tərəfi kompensasiya ödəməyə borcludur.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı, 2015
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı, 2016
3. İmanlı M.N. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. - Bakı, 2019. – 418 s.

4. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3851

5. Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvemsiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. [Elektron resurs]. URL: http://eco.gov.az/az/426-etraf-muhitin-mehafizesi-ile-bagli-azerbaycan-respublikasinin-qosuldugu-beynelxalq-konvensiya-ve-sazislerden-ireli-gelen-meseleler-sahesinde-elave-tedbirler-haqqinda-azarbaycan-resplikasi-prezidentinin-serencami

6. Mirzəli Fətəliyev təbii sərvətlər haqqında. [Elektron resurs]. URL: http://az.strategiya.az/?do=xeber&id=37440.

7. Məmmədov Q.C., Xəlilov M.Y. Ekologiya, ətraf mühit və insan. – Bakı: Elm, 2006. – 608 s.

8. Dünyada qadağan olunmuş 7 silah növü hansıdır? [Elektron resurs]. URL: https:/www.bildirchin.az/dunyada-qadagan-olunmus-7-silah-novu-hansidir/

9. Daşqın Qənbərov. Ekologiyanın mühafizəsi sahəsində beynəlxalq hüquqi tənzimləmə. "Dirçəliş-XXI əsr", -2010, № 143-144. - S. 228-234.

**Иманли М.Н.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.50-56**
**УДК: 343.97**

## Армянский вандализм на оккупированных территориях Азербайджана: Армения прямо нарушила международные конвенции, регулирующие Гаагскую конвенцию и законы войны

**Аннотация:** Правовые основы недопустимости и возмещения ущерба окружающей среде и природным ресурсам Согласно Гаагской конвенции 1907 г. о законах и уставах войны, если воюющая сторона оккупирует территорию другой стороны, то разграбление имущества, принадлежащего гражданскому население не допускается, и этот акт считается военным преступлением. Поведение армян на оккупированных территориях Азербайджана полностью противоречит положениям настоящей Конвенции. Доказательства, полученные из различных источников-фото-и видеозаписи, показания свидетелей, наблюдения иностранных журналистов и другие данные о происходящем на этих территориях, свидетельствуют о том, что Армения прямо нарушила Гаагскую конвенцию и другие международные конвенции, регулирующие законы войны. Несомненно, продолжающиеся и сегодня массовые строительные работы на оккупированных территориях свидетельствуют о том, что и армянские сепаратисты в Карабахе, и Армения как государство стали основными источниками доходов. Экологические проблемы в настоящее время обсуждаются во всем мире как глобальная проблема и вызывают тревогу. Однако международные организации не

♦ **Иманли Мухаммад Наги оглы** - доктор юридических наук, профессор, зав. отделом «Правовое обеспечение государственной безопасности» публичного юридического лица «Институт права и прав человека» при публичном юридическом лице «Центр правовой экспертизы и законодательных инициатив» (Азербайджан). E-mail: mahammad_imanli@mail.ru

только проделали серьезную работу по предотвращению ущерба, нанесенного армянами природе Азербайджана, но и закрыли на это глаза.

**Ключевые слов:** международное экологическое право; Рамочная конвенция ООН об изменении климата; природные ресурсы; экологическая безопасность; Международная комиссия ООН; армянский вандализм; Гаагская конвенция; международное право.

## Библиография

1. Конституция Азербайджанской Республики. - Баку, 2015 (на азерб. яз.).
2. Уголовный Кодекс Азербайджанской Республики. - Баку, 2016 (на азерб. яз.)
3. Иманлы М.Н. Уголовное право. Специальная часть. Учебник. - Баку, 2019. – 418 с. (на азерб. яз.).
4. Закон Азербайджанской Республики «Об экологической безопасности». [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/3851 (на азерб. яз.).
5. Указ Президента Азербайджанской Республики о дополнительных мерах в области вопросов, вытекающих из международных конвенций и соглашений, к которым присоединилась Азербайджанская Республика по охране окружающей среды. [Электронный ресурс]. URL: http://eco.gov.az/az/426-additional-measures-in-the-field-of-issues-from-etraf-muhitin-mehafisesi-ile-agli-azerbaycan-republikaninin-souldugu-international-conventions- about-the-responsibility-of-the-president-of-Azerbaijan (на азерб. яз.).
6. Мирзали Фаталиев о природных ресурсах. [Электронный ресурс]. URL: http://az.strategiya.az/?do=xeber&id=37440.
7. Мамедов Г.Ч., Халилов М.Ю. Экология, окружающая среда и человек. – Баку: Элм, 2006. – 608 с. Экология и охрана окружающей среды – глобальная проблема современности (на азерб. яз.).
8. Какие 7 видов оружия запрещены в мире? [Электронный ресурс]. URL: https://www.bildirchin.az/dunyada-gadagan-olunmus-7-silah-novu-hansidir/ (на азерб. яз.).
9. Дашгин Ганбаров. Международно-правовое регулирование в области охраны окружающей среды // Возрождение-XXI век. -2010. - №143-144. - С.228-234 (на азерб. яз.).

.